## Nağdsız ödənişlərdən istifadə günün tələbidir

Oktyabrın 4-də Nazirlər Kabinetinin qərarı ilə «Azərbaycan Respublikasının ərazisində POS-terminalların quraşdırılması, istifadəsi və tətbiqi Qaydaları» və «POS-terminallar quraşdırılacaq obyektlərin müəyyənləşdirilməsi meyarları» təsdiq edilmişdir. Bu Qaydalar ticarət, məişət və digər növ xidmətlərin göstərilməsi zamanı müştərilərlə hesablaşmaların aparılması, habelə vergilərin və dövlət orqanları tərəfindən göstərilən xidmətlərə (işlərə) görə dövlət rüsumlarının və haqlarının ödənilməsi üçün təsərrüfat subyektlərində POS-terminalların mərhələlərlə quraşdırılması, qeydiyyatı, istifadəsi, habelə POS-terminalların tətbiqi ilə bağlı digər münasibətləri tənzimləyir.

***Texniki tələblər***

Təsərrüfat subyektlərində quraşdırılan və istifadə edilən POS-terminallar, ilk növbədə, beynəlxalq ödəniş kartlarının qəbulu üçün müvafiq sertifikata, məlumat daşıyıcısı həm maqnit lent, həm də inteqral sxem (mikroprosessor) olan kartlar vasitəsilə əməliyyatların həyata keçirilməsi imkanına malik olmalıdır. POS-terminalda kartlar vasitəsilə PIN-kodun daxil edilməsi tələb olunan əməliyyatların aparılması üçün nəzərdə tutulmuş klaviatura (inteqrə edilmiş və yaxud POS-terminalla əlaqəsi olan ayrıca avadanlıq kimi), texniki parametrlərinin bank ekvayer və ya xidmət mərkəzi tərəfindən dəstəklənmə imkanları olmalıdır. POS-terminalın quraşdırılması üçün zəruri olan texniki imkanlar sifarişçi tərəfindən təmin edilir. Bank ekvayer POS-terminalın qoşulmasına və xidmət göstərilməsinə dair xidmət mərkəzi ilə müqavilə bağlayır, quraşdırılacaq terminalın istehsalçısı tərəfindən verilmiş sertifikatın surətini xidmət mərkəzinə təqdim edir.

***Quraşdırılma***

Vergilər Nazirliyi, qanunvericiliyə müvafiq olaraq, POS-terminalların quraşdırılması tələb olunan sifarişçiyə məxsus bütün təsərrüfat subyektlərinə bildiriş göndərir. Sifarişçi bildirişi aldıqdan sonra on iş günü müddətində POS-terminalın quraşdırılması üçün bank ekvayerə müraciət etməlidir. Bank ekvayer sifarişçinin müraciətinə sənədlər təqdim edildikdən sonra üç iş günü müddətində baxır. Bu müddətdə bank ekvayer POS-terminalın quraşdırılması üçün texniki imkanların yoxlanması məqsədilə təsərrüfat subyektinə yerində baxış həyata keçirə bilər.

Qeyd edək ki, sənədlər tam və düzgün təqdim edilmədikdə, bank ekvayerin təsərrüfat subyektində quraşdırmaq üçün POS-terminalı olmadıqda və bu, texniki səbəblərdən mümkün olmadıqda bank ekvayer POS-terminalın quraşdırılmasından imtina edə bilər. Bank ekvayer quraşdırmadan imtina etdikdə, imtinanın səbəbləri qeyd olunmaqla, elektron və ya kağız daşıyıcısında Vergilər Nazirliyinə və sifarişçiyə bu haqda məlumat göndərir.

Sifarişçi bank ekvayerdən imtina haqqında məlumat aldıqdan sonra beş iş günü müddətində imtinaya səbəb olan uyğunsuzluqları aradan qaldırmaqla, yenidən həmin banka və ya POS-terminalın quraşdırılması üçün digər bank ekvayerə müraciət edir. Bank ekvayer sifarişçinin müraciətinə müsbət baxdıqda və müqavilə şərtləri üzrə razılıq əldə edildikdə tərəflər arasında müqavilə bağlanılır və iyirmi iş günü müddətində sifarişçinin müqavilədə nəzərdə tutulmuş təsərrüfat subyektlərində POS-terminal quraşdırılır. Bank ekvayer POS-terminal quraşdırıldıqdan sonrakı ilk iş günü bu barədə elektron və ya kağız daşıyıcısında POS-terminalın qeydiyyatı üçün Vergilər Nazirliyinə müraciət göndərir.

***Ərazilərdə POS-terminalların quraşdırılması davam edir***

Qaydalara edilmiş əlavələrə görə, Bakıda, Gəncədə və Sumqayıtda POS-terminalların quraşdırılması prosesi 2012-ci ildə, Abşeron, Mingəçevir, Şirvan, Şəki, Lənkəran, Yevlax, Bərdə, Naxçıvan, Quba, Xaçmaz, Masallı, Göyçay, Şamaxı, Zaqatala, Şəmkir, Tovuz, Salyan, Sabirabad rayonlarında və şəhərlərində (kənd və qəsəbələr istisna olmaqla) 2013-cü ildə, başqa rayon mərkəzlərində (kənd və qəsəbələr istisna olmaqla) 2014-cü ildə başa çatdırılmalıdır. Ölkənin bütün kənd və qəsəbələrində POS-terminalların 2015-ci ilin sonunadək quraşdırılması nəzərdə tutulur. Qaydalarda göstərilir ki, ərazisindən asılı olmayaraq vergilərin, dövlət rüsumları və ödəmələrinin qəbul edildiyi bütün dövlət orqanlarında POS-terminallar 2013-cü ildə quraşdırılmalıdır.

Vergilər Nazirliyi tərəfindən ərazilərdə POS-terminalların quraşdırılması ilə bağlı maarifləndirici tədbirlərin həyata keçirilməsinə xüsusi diqqət ayrılır. 5 saylı ƏVİ-nin Vergi ödəyicilərinə xidmət şöbəsinin rəisi Pənah Məmmədov bildirir ki, qəbul edilmiş yeni Qaydalar həm POS-terminalların

quraşdırılması işinin sadələşdirilməsinə xidmət edir, həm də ərazilərdə bu tədbirlərin sürətləndirilməsinə təkan verəcəkdir. Yeni Qaydalarda POS-terminalların ərazilər üzrə tətbiqi cədvəli müəyyən edilmiş, bankla vergi orqanı arasında yazışmaların sadələşdirilməsi üçün müraciət və bildiriş formaları hazırlanmışdır. Nağdsız ödəniş vasitələrindən, o cümlədən POS-terminallardan, plastik kartlardan və digər müasir elektron ödəniş xidmətlərinin istifadə istiqamətində çoxsaylı görüşlər keçirilir, vergi ödəyicilərinə səyyar məlumatlandırma xidmətləri göstərilir. Diqqəti cəlb edən əsas məqamlardan biri də POS-terminallar quraşdırılacaq obyektlərin müəyyənləşdirilməsi meyarlarıdır. Nəzərdə tutulan meyarlara görə, vergi ödəyicilərinin seçimi dəqiq müəyyən edildikdən sonra vergi ödəyiciləri ilə fərdi qaydada söhbətlər aparılmalı və POS-terminalların əhəmiyyəti barədə onlara və əhaliyə geniş məlumat verilməlidir.

Arzu İBRAHİMOVA